Azərbaycan Respublikasının
əməkdar artisti, sənətşünaslıq üzrə fəlsəfə doktoru
ZAKİR MİRZƏYEVİN

QARMON ÜÇÜN RƏQSLƏR MƏCMUƏSİ

Rəqslər orijinal ifadan nota köçürülmüşdür.
Nota köçürən
Xeyrulla Dadaşov

Azərbaycan Respublikasının
əməkdar artisti,
sənətşünaslıq üzrə fəlsəfə doktoru

ZAKİR MİRZƏYEVİN

QARMON ÜÇÜN RƏQSLƏR MƏCMUƏSİ

Rəqslər orijinal ifadan nota köçürülmüşdür.

Nota köçürən
Xeyrulla Dadaşov

Bakı – «Mütərcim» – 2018

Elmi redaktoru:

Tofiq Bakıxanov
Azərbaycan Respublikasının xalq artisti, Ü.Hacıbəyli Mükafatı laureatı, professor, bəstəkar

Redaktor:
Aydın Əzim
Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, bəstəkar

Rəyçilər:

Möhlət Müslümov
Azərbaycan Respublikasının xalq artisti, Azərbaycan Milli Konservatoriyasının professoru, Ə.Bakıxanov adına Azərbaycan Dövlət Radiosu və Televiziyası Xalq Çalğı Alətləri Ansamblının bədii rəhbəri
Rasim Quliev
Azərbaycan Respublikasının əməkdar müəllimi, Azərbaycan Milli Konservatoriyasının dosenti, Sumqayıt Musiqi Kollecinin direktoru
Ənvər Sadıqov
Azərbaycan Respublikasının xalq artisti, Azərbaycan Milli Konservatoriyasının müəllimi, Azərbaycan Dövlət Radiosu və Televiziyası "Qaytağı" İnstumental Ansamblının bədii rəhbəri
Sərxan Abiyev
Azərbaycan Respublikasının əməkdar artisti, Azərbaycan Dövlər Mədəniyyət və İncəsənət Universitetinin dosenti
Əhsən Rəhmanlı
sənətlşünaslıq üzrə fəlsəfə doktoru, musiqi tədqiqatçısı
Aydın Əliyev
sənətlşünaslıq üzrə fəlsəfə doktoru, Azərbaycan Milli Konservatoriyasının dosenti

Məsləhətçilər:
Gülnarə Qasımova, Əlövsət Piriyev, Baxşəli Əliyev, Hüseyn Bakılı, İlqar Kərimov

Müəllif onun əsərlərinin nota köçürülməsinə görə istedadlı böyük müəllim Xeyrulla Dadaşova təşəkkürünü bildirir.

Azərbaycan Respublikasının əməkdar artisti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Zakir Mirzəyevin QARMON ÜÇÜN RƏQSLƏR MƏCMUƏSİ */ Orijinal ifadan nota köçürən Xeyrulla Dadaşov.*
– Bakı: Mütərcim, 2018. – 128 səh.

A $\frac{4905000000}{026}$ 206-18

© Z.Mirzəyev, 2018

Ustad qarmon ifaçısı (kor) Əhəd Əliyevin əziz xatirəsinə ithaf olunur

Zakir Mirzəyevin bəstələdiyi və ifa etdiyi "Rəqslər məcmuəsi"nə

ÖN SÖZ

Məşhur qarmon ifaçısı, pedaqoq, əməkdar artist, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Zakir Mirzəyevin bəstələyərək özünün ifa etdiyi rəqslərdən ibarət not məcmuəsinin çap olunması musiqi mədəniyyətimiz üçün mühüm hadisə və irəliyə doğru atılan daha bir addımdır. Məcmuə ilə yaxından tanış olduqda, mən məmnuniyyətlə ön söz yazmağa razılıq verdim. Belə ki, burada toplanmış 30-dan artıq rəqs melodiyası və "Muğam və rəqs" melodik baxımdan, bədii təsir gücü, zənginliyi, üslub xüsusiyyətləri, dolğunluğu və digər spesifik cəhətləri ilə musiqi dünyamız üçün çox əhəmiyyətlidir. Uzun illərdir uğurlu, əhatəli bir yaradıcılıq yolu gələn Z.Mirzəyev daim nəzər-diqqətdə, zəngin fəaliyyətdə, xalq musiqimizə xidmətdə olaraq parlaq sənəti ilə daim sevilmiş və bu gün də sevilməkdədir.

1960-cı illərin əvvəllərindən sənət meydanında parlayan, gənclik illərindən virtuozluq qazanan, dünya şöhrətli dirijor-bəstəkar, xalq artisti, Maestro Niyazi tərəfindən "Qarmonun Paqaninisi" adlandırılan Zakir Mirzəyev bizim hamımızın, musiqi ictimaiyyətinin, xalqımızın gözü qarşısında ucalıb. O, bənzərsiz, çoxçalarlı, zəngin və novator sənəti ilə yüksəkliklərə doğru gedib.

Əbəs deyil ki, ifaçı, pedaqoq, tədqiqatçı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Əhsən Rəhmanlı öz elmi məqalələrində bu məsələlərə toxunub, incə mətləblərə şərh verib və 2008-ci ildə Z.Mirzəyevin 65 illik yubileyinə həsr etdiyi monoqrafiyanı "Zakir Mirzə zirvəsi" adlandırıb. Müəllif Zakir sənətini dərindən araşdıraraq qeyd edir ki, Zakir Mirzəyev 1970-ci illərin əvvəllərində qarmon sənətinin zirvəsini fəth edib.

Z.Mirzəyevin 100-ə yaxın bəstələri var. Bunları o, 1960-cı illərdən başlayaraq indiyə qədər bəstələyərək bar-bəhərli yol gəlib. Buradakı şən, oynaq, zövq oxşayan, ruh tərpədən oyun havalarının hər biri zəngin əsərə bənzəyir. Müəllifin öz ifasında televiziyadan seyr etdiyimiz, radiodan dinlədiyimiz, tədbirlərdə səhnədən görüb eşitdiyimiz bu melodiyalar necə də gözəl, al-əlvan, melizmli və doğma səslənir. Bəli, burada xalqa, xalq musiqisinə isti münasibət və doğmalıq var. Onun bütün bəstələri Azərbaycan xalq musiqisinin mayasından tutulub, xəmirindən yoğrulub. Zakirin melodiyalarının hər biri xalq musiqisinə, klassik muğamlarımıza əsaslanır.

Zakir qarmonu ifa edərək bəstələdiyi üçün bu havalar həmin alətin ecazkar, zəngiçalarlı səsini, tembrini tam, aydın şəkildə göstərir, nəzərə çatdırır və insanların ruhunu oxşayır. Onun

melodiyalarının heç biri bir-birinə bənzəmir, lakin bütün hallarda Zakirin çoşqun təbi, ilhamı hiss olunur və öz dəsti-xətti, dinamik inkişaf, dəqiq ritmik çalarlar daim üst qatda görünür.

Zakirin nota salınan melodiyaları az deyil. Haqqında danışdığım, ön söz yazdığım bu məcmuədən xeyli əvvəllər də musiqiyə aid bəzi kitablarda, məcmuələrdə onun notlaşdırılmış instrumental melodiyalarının çoxu özünə yer tutub. O, hazırda da rəngarəng, axıcı, bədii təsir gücünə, ideya-estetik mahiyyətə malik melodiyalar bəstələyir. İndiki məcmuədə Zakirin əvvəllər bəstələyib radioda, televiziyada, Azərbaycanın və xarici ölkələrin səhnələrində ifa etdiyi populyar melodiyalarla yanaşı, onun son illərdə yazdığı oyun havalarına da yer verilib.

Məcmuədə müxtəlif muğamlar üzərində qurulan, ayrı-ayrı tonallıqlarda ifa olunub nota yazılan rəqs havaları var. "Oynaq rəqs" ("Segah"), "Səadəti" ("Bayatı- Şiraz"), "Azəri" ("Mahur"), "Şəfayəti" ("Segah"), "Simuzər" ("Şur"), "Cəmilə" ("Segah"), "Bəxtəvəri" ("Cahargah"), "Cavani" ("Bayatı-Şiraz") və başqa rəqs havaları Zakirin yaradıcılığının ilk dövrünün məhsuludur. Onun 2016-cı ildən bəri bəstələyib meydana çıxardığı, konsertlərdə və xalq şənliklərində ifa etdiyi yeni, cazibədar oyun havaları da var ki, bunlar da məcmuəyə salınıb. "Nihadı" ("Segah"), "Ramiyyə" ("Şüştər"), "Aysu" ("Bayatı-Şiraz") və digərləri də öz səpgisi, melodik çalarları, məzmun, süjet xətti baxımından öz tutumu, təsir gücü və mahiyyəti ilə öz zənginliyini açıb göstərir. Bütün melodiyalarda Zakirin daxili aləmi, xarakteri, üslub üstünlükləri özünü açıq-aşkar büruzə verir. Qeyd olunmalıdır ki, Zakirin ifaçılıq texnikası, dinamik çalğı manerası, üslub genişliyi onun yaradıcılığının üstün cəhətləri və bütünlükdə isə mahiyyətidir. Onun bütün melodiyalarında qarmonun spesifik cəhətləri, alətə, bu sənətə özünün yanaşma tərzi, zəngin çalarlı ifa xüsusiyyətləri tam aydınlığı ilə nəzərə çarpır.

Bu rəqs havalarının hər biri tərkibinə daxil olduğu, mayasından qaynaq götürdüyü muğamla, qarmonun hansı tonallığına aid olmasından asılı olaraq oradakı texniki imkanlarla tam şəkildə uyğunlaşır, uzlaşır və öz dəyərini əks etdirir. Yəni, melodiyalarda hər hansı muğamın xarakteri də açıq-aydın duyulur.

Ə.Rəhmanlının Z.Mirzəyevin "Şah əsəri" adlandırdığı, uzun illər zövq oxşayan, müəllifin repertuarından düşməyən, 54 ildir uğurlu yol gələn, insanların qəlblərini riqqətə gətirən, könülləri fəth edən "Muğam və rəqs" də məcmuəyə daxil edilib. Üçhissəli bu əsər kompozisiya xarakterli olaraq "Segah" muğamı üzərində qurulub. Burada əvvəl lirik əhvala malik melodiya giriş xarakterli olaraq muğamın "Zabul" pərdələri ilə başlayıb, sanki öncədən dinləyicini bu əsərin mahiyyəti ilə tanış edir. Daha sonra Zakirə qədər ifa olunmayan bir "Segah"la qarşılaşır və ovsunlu, sehirli bir aləmə düşürük. Buradakı improvizə çalarları, ritm-intonasiya münasibətləri, cümlələrin ardıcıllığı, müxtəlif pərdələrdə edilən bir-birindən fərqli gəzişmələrin doğmalıq yaradıb, ümumi ahəngə, kompozisiyaya xidmət edərək tonallıq ətrafında ustalıqla birləşdirilməsi, ideyanı, məzmunu bir xətt üzərində məharətlə yetirmək qabiliyyəti müəllifin geniş təxəyyülündən, sənət fantaziyasından xəbər verir. Buradakı rəqs melodiyası şux, oynaq olmaqla bərabər, geniş təsir gücünə malikdir və əsərin qayəsinə xidmət edərək hər şeyi layiqincə tamamlayır. Bu əsərin mahiyyəti, ifa dəyəri, forma-biçim, xarakter şərtləri olduqca çətin və mürəkkəbdir. Təbii ki, belə əsəri bütün çalarlarına və xarakterinə

uyğun dəqiq incəliklərlə nota almaq çox çətindir. Lakin belə ifalardan götürülmüş nümunələri tam dolğunluğu, incəlikləri ilə olmasa da, bütünlükdə əsas şərtləri notda qeyd eləmək mümkündür. Xeyrulla Dadaşov öz fərdi yanaşmasından, qarmona olan yaxınlığından və öz yazı bacarığından istifadə edərək həqiqətən böyük məharət göstərib.

Çox gözəl haldır ki, pedaqoq, ifaçı Xeyrulla Dadaşov hazırladığı məcmuə üçün nota götürdüyü bütün repertuarda Zakir Mirzəyevin xəttini tuta bilib. Qeyd etməliyəm ki, Z.Mirzəyevin melodyalarının texniki imkanları, ifa tərzi, xırdalıqları, forma-biçimi, buradakı keçidlər, improvizə qaydaları çox mürəkkəb və çətindən-çətindir. Lakin X.Dadaşov bütün bunların öhdəsindən bacarıqla gəlib. Əlbəttə, burada ona uzun illərin təcrübəsi, qarmon ifaçılığı sənətində xeyli müddət çalışması, 50 ildən artıq qarmonun tədrisi ilə məşğul olması, Azərbaycan, rus və xarici ölkələrin bəstəkarlarının əsərlərindən köçürmələr etməsi, "Qarmon məktəbi" və digər dərs vəsaitləri yazıb çap etdirməsi, ümumiyyətlə notla işləməsi ona kömək olub. Z.Mirzəyevlə X.Dadaşovun bu məcmuə üçün qurduqları yaradıcılıq işi uğurla nəticələnib. Deməliyəm ki, "Zakir Mizəyevin bəstələdiyi və ifa etdiyi rəqslər məcmuəsi" layiqli bir vəsait kimi meydana çıxıb. Ümid edirəm ki, Azərbaycanda qarmonun tədrisi ilə məşğul olan təhsil müəssisələrində bu məcmuədən dəyərincə bəhrələnəcəklər. Nəticə göz önündədir. Meydana çıxarılan bu məcmuə qarmonun tədrisi, ifaçılıq sənəti, qarmonsevərlər və bütünlükdə musiqimiz üçün əsl töhfədir. Zakir kimi məhsuldar işə, geniş yaradıcılıq fəaliyyətinə, zəngin bəhrəyə malik uca və qocaman bir sənətkarın yaratdığı nümunələr ifaçılıqda da, tədrisdə də öz davamiyyətli ömrünü yaşamalıdır. Düşünürəm ki, Azərbaycan milli qarmon sənətinə ömür həsr edən Zakir Mirzəyev və Xeyrulla Dadaşov əlbir olaraq, birgə yaradıcılıq qaynağı yaradaraq xidmət etdikləri sənətə öz sədaqətlərini bir daha əyani şəkildə göstərə biliblər. Bu, həm də sənət qarşısında bir borcdur. Burada isə artıq yaradanlar və yaşadanlara uğur arzulamaq qalır ki, mən də bu niyyət və istəklərimi, xoş arzularımı bildirirəm.

Nazim Kazımov

Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi,

pedaqogika üzrə fəlsəfə doktoru, professor,

AMK-nın tərkibində Musiqi Kollecinin direktoru

"SƏBUHİ" kompozisiyası

Zakir Mirzəyev

Andantino









"SEVİNC"rəqsi.

Zakir Mirzəyev.

Prestissimo













"XƏYALƏ"

Zakir Mirzəyev.

Prestissimo





Not Az- 1286

Azərbaycan Milli Kitabxanası


f
1.
2.


f

Rəhimi

Presto

Z.Mirzəyev.









"GÜLNARƏ"

Prestissimo

Z. Mirzəyev.











"TƏBRİZ LÖVHƏLƏRİ"

♪= 177
Adajio

Z.Mirzəyev.









"Təbrizi"

(Kompozisiya)

Z. Mirzəyev.

Andante









"Həzin təranə"

♪ = 169

Larqo Geniş.

Z. Mirzəyev.





"İLHAMI"






1.
2.
16
rim
48
garmon
improvize



Alleqro
♪ = 242

"FİRUDİNİ"

(Kompozisiya)

Z.Mirzəyev.









" Bəxtəvəri"

Alleqretto

20 4






gliss.

"ARİFİ

♪ = 390
Veloçe

Z. Mirzəyev









"ŞƏNLİK RƏQSİ"

♪ = 496
Prestissimo

Z. Mirzəyev







"GÜLŞƏNİ"

♪ = 220
Andante

Z. Mirzəyev.









"AY GÜN"

♪ = 327
Andante

Z.Mirzəyev.









"ULDUZU"

♪ = 374
Andante

Z. Mirzəyev.







"DAGISTAN RƏQSİ"

♪ = 260
Allegretto

Z. Mirzəyev






♪ = 209
Alleqro, canlı,oynaq



"SƏADƏTİ"

♪ = 390

Alleqretto

Z. Mirzəyev






rit.
PP



"AZƏRİ"rəqsi

♪ = 352
Moderato

Z. Mirzəyev









"OYNAQ RƏQS"

♪ = 332

Moderato

Z. Mirzəyev.





"SİMUZƏRİ"

♪ = 354
Alleqro

Z. Mirzəyev.







"ŞƏFAYƏTİ" rəqsi

♪ = 337
Alleqro

Z. Mirzəyev.







"CƏMİLƏ" rəqsi

♪ = 326

Z. Mirzəyev.

Andante











"Cavani" rəqsi

♪ = 388
Allegretto

Z. Mirzəyev.









"SƏİDƏ" rəqsi

♪ = 369

Allegro

Z. Mirzəyev.











"Firəvan" rəqsi

♪ = 378

Allegro

Zakir Mirzəyev.







"NİHAT"

♪ = 346
Allegretto

Z. Mirzəyev.







"RAMİYYƏ"

♪ = 388
Alleqretto

Z. Mirzəyev.









"AYSU" rəqsi

♪ = 367

Allegro

Z.Mirzəyev.







"FUADI"

♪ = 362
Alleqretto

Z. Mirzəyev.







MUGAM VƏ RƏQS.

♪= 118
Adagio

Z. Mirzəyev.



♪= 118
Adajio







♪ = 453
Presto







MÜNDƏRİCAT

Ön söz 3
1. "Səbuhi" (kompozisiya) 6
2. "Sevinc" 10
3. "Xəyalə" 16
4. "Rəhimi" 20
5. "Gülnarə" 24
6. "Təbriz lövhələri" 29
7. "Təbrizi" 33
8. "Həzin təranə" 37
9. "İlham" 39
10. "Firudini" (kompozisiya) 43
11. "Bəxtəvəri" 47
12. "Arifi" 50
13. "Şənlik" 54
14. "Gülşəni" 57
15. "Ay gün" 61
16. "Ulduzu" 65
17. "Dağıstan rəqsi" 68
18. "Səadəti" 72
19. "Azəri" 76
20. "Oynaq rəqs" 80
21. "Simuzəri" 82
22. "Şəfayəti" 85

Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap olunmuşdur.

Çapa imzalanıb: 03.08.2018.
Format: 84x108 1/16. Qarnitur: Times.
Həcmi: 8 ş.ç.v. Tiraj: 100. Sifariş № 206.
Qiyməti müqavilə ilə.

MÜTƏRCİM

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44, (055) 715 63 99
e-mail: mutercim@mail.ru
www.mutercim.az

Mirzəyev Zakir Qulam oğlu 1943-cü ildə Bakı şəhərində anadan olmuşdur. Birinci sinfə gedəndən qarmon ifaçılığı sənətini öyrənməyə başlamışdır.

1953-1957-ci illərdə Bakıda keçirilən baxış və olimpiadalarının iştirakçısı olmuş, qazandığı uğurlu çıxışlarına görə I-ci dərəcəli medal və fəxri fərmanlarla təltif olunmuşdur.

1959-cu ildə Moskva şəhərində keçirilən Azərbaycan ongünlüyü dekadasına hazırlıq məqsədilə keçirilən festival baxışı üçün Bakıya dəvət olunmuş, qazandığı böyük uğurlu çıxışlarına görə ifa etdiyi bir musiqi nömrəsini T.Dəmirovun "Bayatı-Şiraz Dəraməd"ni radioda lentə yazaraq Qızıl Fonda daxil etmişlər.

1962-ci ildə Azərbaycan Dövlət Teatr İnstitutuna qəbul olmuş, 1968-ci ildə institutu bitirib təyinatla M.Moqomayev adına Azərbaycan Dövlət Flarmoniyasına "solist-qarmonçu" vəzifəsində işləmək üçün göndərilmişdir. 1978-1999-cu illərdə Azərbaycan Dövlət Konsert Birliyində çalışmışdır. 100-ə qədər bəstələdiyi rəqs havalarından ibarət musiqi müəllifidir. Bunlardan 50-dən çoxu Azərbaycan Dövlət radiosunun Qızıl Fondunda saxlanılır və daim səsləndirilir. Ümumilikdə Azərbaycan radiosunun Qızıl Fonduna daxil olmuş 135-ə qədər musiqi nümunəsi ifa etmişdir.

1979-2006-cı illərdə bir çox xarici ölkələrdə (Hollandiya, Hindistan, Vyetnam, Anqola, Konqo, Türkiyə, Komboca, İran, Avstriya və s.) yüksək səviyyəli konsert proqramları ilə çıxış etmişdir. 1983-cü ildə Vyetnamın fəxri vətəndaşı adına layiq görülmüşdür.

1999-cu ildə Soltan Hacıbəyov adına Sumqayıt Musiqi Texnikumunu "Qarmon ixtisası" üzrə müəllim kimi bitirib və həmin ildən Bakı Musiqi kollecində qarmon ixtisası üzrə muğam müəllimi vəzifəsində fəaliyyət göstərir.

İlk dəfə olaraq qarmonda görkəmli bəstəkar, professor, xalq artisti Tofiq Bakıxanovun bir saylı, üç hissəli konsertini Niyazi adına Azərbaycan Dövlət Simfonik orkestri ilə 2001-ci ildə solist olaraq ifa etmişdir. Əsər radio və televziyanın Qızıl Fonduna daxil edilmişdir. İncəsənət xadimləri və bəstəkarlar onun qarmonda ilk dəfə ifa etdiyi bu mürəkkəb və böyük həcmli simfoniyanı qarmon aləmi üçün yeni məktəb açılması kimi qiymətləndirmişlər.

24 dekabr 2002-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti adına layiq görülmüşdür. 2005-ci ildə sənətşünaslıq namizədi alimlik dərəcəsi almaq üçün "Azərbaycan xalq musiqisində qarmonun rolu və əhəmiyyəti" mövzusunda dissertasiya işini müdafiə etmişdir.

Bir monoqrafiya, 2 qarmon məktəbli kitabı, Rast muğamı fənni üzrə metodik tövsiyə, "Muğam" (Qarmon aləti) fənni üzrə proqram və tədqiqat işi ilə bağlı elmi məqalələrin və çıxışların müəllifidir. 2006-cı ildə Mədəniyyət və Turizm Nazirinin rəhbərlik ediyi bir qrup nümayəndə heyəti ilə Avstriyanın Vyana şəhərində dahi Ü.Hacıbəyov büstünün açılış mərasimində iştirak etmişdir. 2006-cı ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Musiqi sənəti" fakültəsində qarmon ixtisası üzrə muğam fənnindən baş müəllim vəzifəsində çalışmağa dəvət edilmişdir. 2008-ci ildən mənə Mədəniyyət və İncəsənət Universitetinin dosentidir.

2007-ci ildə 30 il haqqında düşündüyüm və çalışdığı sol tərəfli yeni Azərbaycan qarmonunun ixtirasını tamamlayaraq 2008-ci il 21 may tarixli Azərbaycan Respublikasının Standartlaşdırma Metrologiya və Patent üzrə Dövlət Agentliyinin "Patent ixtira" vəsiqəsini almışdır. Elmi-pedqaqoji fəaliyyəti və anadan olmağımın 70 illiyi münasibətilə Təhsil Nazirliyinin "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilmişdir.